

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 85 (22.996)

8 may 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına layihənin texniki göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, burada inşa edilən tunelin qapalı hissəsinin uzunluğu 130, açıq hissəsinin uzunluğu 366 metr olmaqla ümumi uzunluğu 496 metrə bərabərdir. Tunelin hərəkət hissəsinin eni 10 metrdir. Layihə çərçivəsində 193 metr yanaşma yolları inşa olunub, həmçinin Sabunçu yol qovşağınadək uzunluğu 702, eni isə 12 metr olan yeni yol hissəsi salınıb. Layihə zamanı inşa olunan biraşırımlı körpünün uzunluğu 27 metr, eni isə 12 metrdir. Layihənin icrası yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 7-də Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş tədbirlər keçirilib

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilib.***



Sayca yetmiş doqquzuncu məşğələni giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq "Ümummilli lider Heydər Əliyevin milli dövlətçilik ənənələri və varislik" mövzusunda məruzə edib. O, ulu öndərimizin memarı və qurucusu olduğu Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanılmasındakı misilsiz xidmətlərindən, şərəfli və mənalı ömür yolundan, Onun milli dövlətçilik konsepsiyasından ətraflı danışıb.

İsmayıl Hacıyev bildirib ki, Azərbaycanın azad, ədalətli, demokratik, siyasi plüralizmin hökm sürdüyü, vətəndaş cəmiyyətinə malik bir ölkə kimi formalaşmasında ümummilli liderin əvəzsiz xidmətləri vardır. Görkəmli dövlət xadimi Heydər Əliyev nəinki müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını işləyib hazırlayıb və həyata keçirib, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram ətrafında səfərbər edən milli təlimin – Azərbaycançlıq ideologiyasının da əsasını qoyub.

Vurğulanıb ki, dahi şəxsiyyətin əməli-nəzəri fəaliyyətinin mühüm bir hissəsini təşkil edən dövlətçilik fəlsəfəsi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, inkişaf etdirilməsində əhəmiyyətli rol oynayıb. Əsl fəaliyyət strategiyası olan dövlətçilik təlimi sayəsində uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınmaqda olan Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiq prosesi reallaşıb.

Məruzəçi bildirib ki, ulu öndər Heydər Əliyev həyatı boyu istər Azərbaycana rəhbərliyinin birinci, istərsə də ikinci dövründə daim Vətəninin, xalqının gələcəyini düşünüb. Azərbaycanın müstəqilliyinin əbədiliyinə bütün varlığıyla inanaraq bu dövlətin ideya əsaslarını, strateji inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirib.

"Ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dövlət quruculuğunun digər sahələri kimi bütün Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması da dövlət siyasəti səviyyəsinə qaldırıldı", – deyən akademik İsmayıl Hacıyev bir faktı xüsusi vurğulayıb ki, başqa sahələrdə olduğu kimi milli ideoloji baxışlar sisteminin formalaşdırılmasında da dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipini saxladı. Ulu öndər Heydər Əliyev qeyd edirdi ki, milli ideologiya tarixi keçmişimizlə, millətimizin adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

Məşğələyə yekun vuran bölmə sədri qeyd edib ki, bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin ölkəmizin firavan gələcəyinin təmin edilməsində ümummilli liderin müstəqil dövlətçilik təliminin müddəalarını əsas götürməsi Azərbaycanın gündən-günə daha da güclənməsində, beynəlxalq arenada özünə layiqli yer tutmasında əhəmiyyətli rol oynayır, bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir.

* * *



***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatında ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Ulu öndər Heydər Əliyevin ideyaları gələcəyimizin qarantıdır" mövzusunda konfrans keçirilib.***

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev "Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur", təşkilatın sədr müavini İbrahim Hənifəzadə "Azərbaycançılıq ideologiyasının formalaşmasında dahi şəxsiyyət Heydər Əliyevin rolu", təşkilatın idarə heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Nüsrət Həsənov "Ulu öndər Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", aparıcı məsləhətçi Cahandur Məhərrəmov "Naxçıvan Muxtar Respublikası Heydər Əliyev ideyalarının işığında sürətlə inkişaf edir" mövzularında məruzələr ilə çıxış ediblər.

Qeyd olunub ki, xalqımızın iftixarı, hələ sağlığında ikən bütün dünya azərbaycanlılarının ümummilli liderinə çevrilmiş dahi şəxsiyyətin ideyaları və əməlləri qəlbimizdə yaşayır və daim yaşayacaqdır. Müstəqil Azərbaycanın qurucusu olan ulu öndərin xalqımız və ölkəmiz üçün gördüyü işlər əsrlər keçsə də, tarixi dəyərini itirməyəcək. Onun siyasi-mənəvi irsi təkcə xalqımızın deyil, bəşəriyyətin zəngin xəzinəsinə çevrilib.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyev Vətənin müstəqilliyinin möhkəmləndirilməsi, daimi və əbədi olması, ölkənin hərtərəfli inkişafı, xalqın milli-mənəvi dəyərlərinin qorunması və təbliği üçün cahanşümul işlər görüb. Dahi şəxsiyyətin həyatı və fəaliyyəti Azərbaycançılıq məktəbidir. O, Azərbaycançılıq ideyalarının yaradıcısı kimi, dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün milli birliyimizin, həmrəyliyimizin zəruri olduğunu bəyan edib. Ölkəmizdə iqtisadiyyatın, elmin, mədəniyyətin, incəsənətin, ədəbiyyatın, idmanın inkişafı da dahi rəhbərin adı ilə sıx bağlıdır.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin siyasi idarəçilik təcrübəsi, dövlətçiliyin təməl prinsiplərinə dərindən bələd olması və fəaliyyəti boyu həmin prinsiplərə istinad etməsi bu fenomen şəxsiyyətin uzaqgörənliyini, müdrikliyini, ekstremal vəziyyətdə doğru qərar qəbul etmək bacarığını şərtləndirən amillərdəndir. Bu gün müstəqil Azərbaycan istər siyasi, istər sosial-iqtisadi, istərsə də mədəni inkişaf baxımından dünyanın qüdrətli dövlətləri sırasındadır. Bu, ulu öndərin "Azərbaycan dünyaya Günəş kimi doğacaqdır" arzusunun Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilməsinin əyani göstəricisidir.

Diqqətə çatdırılıb ki, muxtar respublikamız Heydər Əliyev ideyalarının işığında özünün yeniləşən inkişaf mərhələsinə çatıb. Naxçıvan geniş quruculuq meydanına çevrilib, iqtisadi yüksəliş, çoxşaxəli dinamik inkişaf aydanaya, ildən-ilə Azərbaycanımızın bu qədim diyarına yeniliklər gətirib. Hər il onlarla yeni məktəb, xəstəxana, mədəniyyət müəssisəsi, həkim ambulatoriyası və tibb məntəqəsi, geniş idman qurğuları istifadəyə verilir. 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı və Azərbaycanın Gənclər Paytaxtı olan Naxçıvan həm də beynəlxalq səviyyəli konfransların, idman tədbirlərinin keçirildiyi məkana çevrilib. Bölgədə dövlət gənclər və qadın siyasəti öz uğurlu nəticələrini verir. Bütün bunlar dahi şəxsiyyət tərəfindən əsası qoyulmuş uğurlu siyasətin qədim diyarımızda davam etdirilməsi, bu yola sədaqətin bariz ifadəsidir.

Tədbirin sonunda məktəblilər ulu öndərə həsr olunmuş şeirləri bədii qiraət edib, Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul edilən bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

***Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar keçirilən tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq çıxış edib.***

Bildirilib ki, ulu öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə doğma Azərbaycanımız bütün sahələrdə inkişaf və tərəqqi edib, xüsusilə sosial, iqtisadi, elmi-mədəni sahələrdə böyük nailiyyətlər əldə olunub.

"Ümummilli lider Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycanın dövlət müstəqilliyinin əsası qoyulub", – deyən təşkilat sədri vurğulayıb ki, müstəqilliyini bərpa etmiş ölkəmiz bu qiymətli sərvətdən məhrum olmaq təhlükəsi ilə üz-üzə qalanda xalqımızın nüfuzlu ziyalıları ölkəmizi bu bəladan xilas edəcək şəxsiyyətin rəhbərliyi ilə yeni bir siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaranması zərurəti ilə əlaqədar ulu öndərə üz tutdular. 1992-ci il noyabrın 5-də dahi rəhbər Heydər Əliyev partiyanın təşkilat komitəsinin, noyabrın 21-də isə Naxçıvan şəhərində keçirilən təsis konfransında yekdilliklə Yeni Azərbaycan Partiyasının Sədri seçildi.

1993-cü ilin iyun ayında görkəmli dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıtdı. Bundan sonra ölkədə siyasi sabitlik və əmin-amanlıq yarandı, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu. 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlı ilk neft kontraktları imzalandı, 1995-ci il noyabr ayının 12-də müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirildi, ölkəmizdə tarixi islahatlar aparılmağa başlandı. Torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi üçün mühüm qanunvericilik aktları qəbul edildi. Gənc, müstəqil Azərbaycanın beynəlxalq nüfuzu artmağa başladı.



Vurğulanıb ki, bu gün əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş daxili və xarici siyasət, quruculuq tədbirləri, respublikanın sosial-iqtisadi inkişafı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Azərbaycan bu gün iqtisadi potensialı baxımından lider ölkələrdən biridir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ideyalarının sədaqətlə həyata keçirilməsi, muxtar respublika iqtisadiyyatının yüksələn xətlə inkişafı hamımızda qürur hissi doğurur və bütün bu nailiyyətlər ulu öndərimizin ideyalarının təntənəsi kimi qiymətləndirilir. Bunu dahi şəxsiyyətin "Azərbaycanın incisi" adlandırdığı Ordubad rayonunun timsalında da aydın görmək olar. Məhz görkəmli dövlət xadiminin ideyalarına sədaqətin ifadəsidir ki, bu kiçik rayon bu gün özünün ən gözəl çağlarını yaşayır. Başdan-başa müasirliyə qovuşmuş bölgədə hər il müxtəlif təyinatlı quruculuq tədbirləri həyata keçirilir. İnsanların məşğulluğunun təmin edilməsi diqqət mərkəzində saxlanılır. İqtisadiyyatın elmi əsaslarla inkişaf etdirilməsinə ciddi önəm verilir.

Tədbirdə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynlinin, Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatı Qadınlar Şurasının sədri Könül İsmayılovanın, Gənclər Təşkilatının sədri Elvin Məmmədovun məruzə ətrafında çıxışları olub.

Sonda Ordubad şəhər 1 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında ulu öndərə həsr olunmuş şeirlər səsləndirilib, partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim edilib.

**Xəbərlər şöbəsi**

*Tarixdən bu günə*

# Naxçıvan şəhərinin tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır

***Dünya sivilizasiya mərkəzlərindən olan Naxçıvan diyarı tarixi, mədəniyyəti və təbii zənginlikləri ilə həmişə diqqəti cəlb etmişdir. Geosiyasi mövqeyi, əlverişli yerdə yerləşməsi, bərəkətli torpaqları, zəngin yeraltı və yerüstü sərvətləri insanların 500 min il bundan əvvəl burada məskunlaşmasına şərait yaratmışdır. İnsanlar Daş dövründən başlayaraq bu ərazidə yaşamış və təbii zənginliklərindən istifadə etməyi öyrənmişlər. Ərazinin qədim sakinləri Naxçıvanın təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşamışlar.***



Naxçıvan Nuh Peyğəmbər və Dünya tufanı ilə sıx surətdə bağlıdır. Nuh Peyğəmbərin torpağa endiyi ehtimal olunan yerlərdən biri də Naxçıvan ərazisindəki Gəmiqayadır. Nuh Peyğəmbərin ailəsi və tərəfdaşları Naxçıvan ərazisində quruya çıxmış, burada yurd salmış və Nuh Peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur. "Naxçıvan" sözü Nuhçıxan ifadəsindən yaranmışdır. Naxçıvan Nuhçıxanın varisidir, davamıdır. Nuhçıxan şəhərin formalaşması mərhələsi, Naxçıvan isə artıq inkişaf etmiş şəhərdir.

Tarixdə ilk dəfə olaraq yunan alimi Klavdi Ptolomey bizim eranın II əsrində Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlatmışdır. Sonrakı dövrlərdə dünyanın müxtəlif ölkələrindən buraya səfər etmiş səyyah və coğrafiyaşünasların əsərlərində də Naxçıvanın Nuhla bağlılığı diqqətə çatdırılmışdır.

XIX əsrin 80-ci illərində Naxçıvanda yaşayıb-işləmiş tanınmış rus maarifçi ziyalısı Konstantin Nikitinin əhali arasından topladığı materiallarda Naxçıvan şəhərinin Nuh Peyğəmbər tərəfindən salınmasına dair konkret fikirlər ifadə olunmuşdur: "Nuh hazırda Naxçıvan şəhərinin olduğu yerdə məskunlaşmışdır. O, burada gələcək şəhərin əsasını qoymuş və ailəsini orada yerləşdirmişdir. Şəhərin "ilk məskunlaşma yeri", yaxud "birinci dayanacaq" mənasını bildirən adı da buradan əmələ gəlmişdir... Nuh və onun nəsli uzun illər Naxçıvanda yaşamışdır. Rəvayətə görə, ilk insan nəsilləri buradan yayılmışdır. Nuhun özü, bacısı və ailənin bəzi digər üzvləri Naxçıvanda vəfat etmiş və orada dəfn olunmuşlar".

Nuh Peyğəmbərin məzarının da Naxçıvan şəhərində olduğu mənbələr əsasında müəyyən edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun xüsusi sərəncamı əsasında Naxçıvan şəhərindəki Nuh türbəsi yenidən bərpa olunmuşdur. Nuh Peyğəmbərin məzarı üzərində ucaldılmış türbə yeni sivilizasiyanın Naxçıvan diyarındakı izlərinə və böyük tarixi-əfsanəvi şəxsiyyətə bəslənilən ehtiramı dolğun şəkildə ifadə edir.

K.A.Nikitin Naxçıvan şəhəri ilə yanaşı, bu şəhərdən bir qədər aralıda yerləşən Duzdağın da əsasının Nuh Peyğəmbər tərəfindən qoyulduğu fikrini irəli sürmüşdür. Rus tədqiqatçısı Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olmasını və şəhər əhalisinə duz çıxarmağı öyrətməsini qeyd etmişdir. Belə olduqda Naxçıvan şəhəri ilə Duzdağ, təxminən, yaşıddır.

Sovetlər birliyi dövründə milli tarix və mədəniyyətimizin öyrənilməsinə qoyulan məhdudiyyətlər bəhs etdiyimiz Naxçıvanın ilkin şəhər mədəniyyətinin yaranmasına, bunun Nuh Peyğəmbərin Naxçıvanla əlaqəsinə, Duzdağın və duzun çıxarılmasının tarixinə də aiddir. Lakin ölkəmiz ikinci dəfə dövlət müstəqilliyini bərpa etdikdən sonra muxtar respublikamızın da hərtərəfli öyrənilməsinə və inkişaf etdirilməsinə şərait yarandığı kimi, diqqət də artırılmışdır.





1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi və simpoziumun qərarları Naxçıvan tarixinin öyrənilməsində əhəmiyyətli addım olmuşdur. Beynəlxalq simpozium iştirakçılarını təbrik edən ulu öndər Heydər Əliyev demişdir: ***"Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun beynəlxalq simpoziumun keçirilməsinə qərar verməsi və ona rəhbərlik etməsi muxtar respublikamızın tarixinə, müasir dövrünə və gələcəyinə vermiş olduğu mühüm dəyərin ifadəsi idi.

Sonrakı illərdə Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə keçirilən "Nuh Peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" və başqa beynəlxalq konfranslar Naxçıvan diyarının tarixinin, mədəniyyətinin, təbii zənginliklərinin öyrənilməsində də mühüm rol oynamışdır. Xüsusilə 2012-ci il 20 aprel tarixdə keçirilməsinə Sərəncam verilmişdir: *"Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən mühüm amillərdən biri də son illər aşkara çıxarılan və elmi tədqiqata cəlb olunan Duzdağ mədəniyyətidir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə, öz növbəsində, şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır".*

"Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusundakı elmi konfransda Naxçıvan ilkin şəhər mədəniyyətinin formalaşmasının Duzdağla, duz çıxarılması ilə sıx bağlı olduğu qeyd edilmişdir.

Sərəncamdan irəli gələn vəzifələrə uyğun olaraq əvvəlki illərdə aparılan arxeoloji tədqiqatların fəaliyyəti bir qədər də canlanmışdır. Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılmış, bizim eradan əvvəl V-III minilliklərə aid maddi-mədəniyyət nümunələri aşkar edilmiş, tarixi əhəmiyyət daşıyan nəticələr əldə olunmuşdur. Müəyyən edilmişdir ki, Naxçıvan Duzdağı dünyanın ən qədim duz mədənidir. Burada duz mədən üsulu ilə eramızdan əvvəl V minillikdən çıxarılmağa başlanılmışdır. Naxçıvan arxeoloqlarının və beynəlxalq arxeoloji ekspedisiya üzvlərinin araşdırmaları zamanı Eneolit və Erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika məmulatları, daş çəkiclər tapılmışdır. Mədənlərdən aşkar edilmiş maddi-mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər əsasında müəyyən olunmuşdur ki, bu duz yataqlarından eramızdan əvvəl V-III minilliklərdə geniş istifadə edilmişdir. Tədqiqatlar bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsasının qoyulmasını və bunun da beşminillik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərdiyini təsdiq etmişdir.

İnsanlar duzun çıxarılması üçün müəyyən çapacaqlardan, daş baltalardan və bu kimi əmək alətlərindən istifadə etmişlər. Əmək alətlərini isə onlar iş prosesində zəruri ehtiyac nəticəsində düzəltmişlər. Əmək alətlərinin düzəldilməsi sənətkarlığın inkişafına səbəb olmuşdur. Tədqiqatçılar Duzdağ ərazisində 1 kiloqramdan başlamış 30 kiloqrama qədər daş baltalar, gürzlər aşkar etmişlər. Tarixi faktlardan məlumdur ki, 1870-ci ildə yerli duz mədənlərinin keçmiş nəzarətçisi olmuş Beyer daş çəkiclər aşkar etmişdir. Həmin çəkiclərdən 2 ədədini Naxçıvan məktəbinə, qalanlarını isə Tbilisi və Peterburq muzeylərinə göndərmişdir. Təbii ki, duzun çıxarılması üçün istifadə olunan daş alətlər, balta və çəkiclərdən ibtidai dövrlərdə, dəmirdən istifadənin hələ insana məlum olmadığı Daş dövründə istifadə olunmuşdur. Sonrakı dövrlərdə dəmir əmək alətlərindən istifadə etmişlər. Nəticədə, əməyin məhsuldarlığı xeyli artmışdır. Barıtın kəşfindən sonra duz laylarının barıtla partladılması sayəsində gün ərzində bir işçi 40 puda qədər duz çıxara bilmişdir.

Duz istehsalının ən böyük təsirlərindən biri də mübadilənin, duz ticarətinin əsaslı inkişafına səbəb olmasıdır. Naxçıvan mədənlərindən çıxarılan duz İrəvan vilayətinin Qarniçay və İlançay vadilərindəki kəndlərə, Dərələyəz mahalına, Göyçə gölü, Qarabağ və Gəncə ətrafına, Şuşaya, Zəngəzura aparılırdı. Ümumiyyətlə, duzun əsas istifadə bölgələri Naxçıvan, Ordubad, Yeni Bəyazid qəzaları, İrəvan quberniyası, Şuşa və İran idi. Qafqaz Dağ İdarəsinin 1889-1907-ci illər (19 il ərzində) hesabatında Naxçıvan mədəninin orta illik istehsal gücünün 164,4 puda bərabər olduğu göstərilir. 1868-ci ildən Sust duz mədənindən də duz çıxarılmağa başlanılmışdır.

Beləliklə, bir neçə min il bundan əvvəl Duzdağın insanlara məlum olması, duzun çıxarılması, istifadəsi, daşınması, satışı Naxçıvanda yaşayış məskənlərinin genişlənməsinə və şəhərləşmə işinin inkişafına təkan vermişdir. Duzdağ Naxçıvanda şəhərtipli mədəniyyətin əsasında dayanan ən mühüm amil olmuşdur.

Naxçıvanın tarixində Duzdağın və duzun oynadığı mühüm rol nəzərə alınaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyinin yaradılması qərara alınmışdır. Bu günlərdə həmin muzeyin açılışı olmuşdur. Naxçıvan Duz Muzeyinin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvanın tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır. Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Çünki Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olmuşdur... Naxçıvan şəhəri məhz duzun çıxarıldığı bu ərazilərdə salınmışdır. Bu da o qənaətə gəlməyə imkan verir ki, Naxçıvan şəhərinin formalaşması 5-7 min il bundan əvvəl Naxçıvanda ilk dəfə duzun çıxarılması ilə başlanmışdır".***

Ali Məclisin Sədri Naxçıvan tarixinin araşdırılması ilə bağlı görülmüş işləri ümumiləşdirmiş və görüləcək işlərlə bağlı Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, müvafiq dövlət qurumları və ziyalılar qarşısında duran vəzifələrdən bəhs edərək demişdir: ***"Naxçıvan şəhərinin yaranmasının duzun çıxarılması ilə bağlılığı sahəsində tədqiqat işləri genişləndirilməli, arxiv sənədləri toplanılmalı, yeni kitablar və elmi məqalələr yazılmalıdır".***

Naxçıvan Muxtar Respublikasında mövcud olan 30-dan çox muzey sırasına yeni bir muzey – Naxçıvan Duz Muzeyi də daxil olmuşdur. Bu muzey öz əhəmiyyətinə və oynadığı rola görə muzeylər arasında çox böyük və mühüm yer tutur. Çünki bu, bilavasitə ilkin şəhər mədəniyyətinin yaranması və inkişaf tarixi ilə bağlıdır. Naxçıvan duzu Naxçıvanın şəhər kimi formalaşmasında tarixi rol oynamışdır. Naxçıvan Duz Muzeyinin yaradılması xalqımızın tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə göstərilən böyük qayğının ifadəsidir. Ona görə tədqiqatçılarımız bu qayğıya öz əməli işləri ilə layiqli töhfələr verməlidirlər.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Əcnəbi tələbələrin iştirakı ilə tədbir keçirilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş tədbir keçirilib.***

Tədbirdə əcnəbi tələbələr iştirak ediblər. Naxçıvan Biznes Mərkəzində təşkil olunan tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq ulu öndərimizin təhsilin inkişafı sahəsində gördüyü işlərdən, qazanılan uğurlardan, muxtar respublikada son illərdə bu sahə ilə bağlı əldə edilən nailiyyətlərdən danışıb. O bildirib ki, ümummilli liderimizin bu gün də uğurla davam etdirilən təhsil siyasəti məktəblərdə təlim şəraitinin yaxşılaşmasına, tədrisin keyfiyyətinin yüksəlməsinə və müəllimlərin pedaqoji ustalığının artmasına səbəb olub.



Xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev çıxışında deyib ki, mövcud sabitlik, artan sosial-iqtisadi inkişaf, miqrantların hüquq və azadlıqlarının qorunması istiqamətində görülən işlər nəticəsində muxtar respublikaya miqrant axını ilbəil artır. Qeyd edib ki, multikultural dəyərlərin hakim olduğu Naxçıvanda yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrədilməsi məsələsi xidmətin diqqət mərkəzində saxlanılır və bu istiqamətdə həyata keçirilən tədbirlər olduqca əhəmiyyətlidir.

Tədbirdə xidmətin əməkdaşları Qiyas Paşayev və Zakir Məmmədov çıxış edərək iştirakçılara əcnəbi tələbələrin müvəqqəti olma və yaşama prosedurları, onların qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələri haqqında ətraflı məlumat veriblər.

Naxçıvan Dövlət Universitetinin tələbəsi Odigie Samson Joe əcnəbi tələbələr adından onlar üçün yaradılan şəraitə və göstərilən diqqətə görə minnətdarlıq edib.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı videoçarx nümayiş edilib, əcnəbi tələbələrə müvəqqəti yaşamaq üçün icazə vəsiqələri və bukletlər verilib, müvafiq müraciətlər qəbul edilib, mərkəzdəki yerli məhsullara baxış olub.

Sonra əcnəbi tələbələrin Ağbulaq İstirahət Mərkəzinə gəzintiləri təşkil edilib, mərkəzdə onların iştirakı ilə "Ulu öndər Heydər Əliyev və Naxçıvan" mövzusunda viktorina və idman oyunları keçirilib. Sonda qaliblər mükafatlandırılıb.

**Nail ƏSGƏROV**




"Gənclər Paytaxtı"nın gəncləri

# Sağlam və intellektli gənclik malik olduğumuz ən böyük sərvətimizdir

*Görkəmli rus yazıçısı və dramaturqu Qoqol yazırdı: "Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var". Yəqin ki, hər kəs böyük mütəfəkkirin bu fikirləri ilə razılaşar. Amma bir həqiqət də var ki, gənclik təkcə gələcəyi olduğu üçün yox, etibarlı və sağlam əsaslara malik gələcəyi olduğu üçün xoşbəxt sayıla bilər.*

Gələcəyimizi gəncliyə etibar etməklə iş bitmir. Əsas şərt gənclərin qayğısına qalmaq, onlara təhsil vermək, peşə öyrətmək, Vətənə və xalqa yararlı vətəndaş kimi formalaşdırmaqdır. Yalnız bundan sonra onun xoşbəxt gələcəyi haqqında fikir söyləmək olar.

Böyük ingilis şairi Uilyam Şekspir isə gənclik mövzusunda belə bir qənaətə gəlmişdi ki, "Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin alacaqları təhsil və tərbiyədən asılıdır". XX əsrin əvvəllərində "Füyuzat" jurnalı da gənclik mövzusuna öz səhifələrində geniş yer verərək diqqəti daha çox ona çəkirdi ki, "Zamanın hər parçasını millətinə, Vətəni adına dəyərləndirən gənclik uca missiyaları çiyinlərində daşıyan xalq qəhrəmanıdır".

Göründüyü kimi, gənclik bütün dövlərdə aktual mövzu olub. Sağlam gəncliyin formalaşdırılması ölkənin və xalqın həyatında ən vacib amil kimi götürülüb, bu məsələ barədə çox yazılıb, çox müzakirələr aparılıb, bir-birindən maraqlı fikirlər söylənilib. Zaman-zaman hər bir ölkədə, cəmiyyətdə gəncliyə münasibətdə fərqli yanaşmalar ortaya çıxıb.

Əlbəttə, bir sahənin inkişafı haqqında danışmaq üçün o sahənin dünəni ilə bu günü müqayisə olunmalıdır. Xatırlayırıq ki, 20 il bundan əvvəl digər sahələr kimi, gəncliyimiz və bununla bərabər gələcəyimiz də zamanın məhvərindən çıxıb yeyin addımlarla uçuruma doğru gedirdi. Məktəbdən, təhsildən yayınıb xırda-para alver dalınca düşmək, vaxtını çayxanalarda öldürmək, cibində 5 qəpik pulu olanda da kəndin, şəhərin "qoçusuna" çevrilmək həmin dövr gəncliyinin ürək dağlayan mənzərəsi idi. Kəndini, şəhərini, ailəsini tərk edib orda-burda "səadət axtarışı"na çıxan gəncliyin ən böyük arzusu, məqsədi də yaşadıqları həyat tərzindən bir o qədər fərqlənmirdi. Özlərini milli və mənəvi dəyərlərimizdən kənar xarici film "qəhrəmanları"na bənzədən, vaxtlarını "domino yarışları"nda öldürən, alverə qurşanıb "biznesmen" olacağına inanan, idmandan uzaq düşüb zərərli vərdişlərə aludə olan gənclərin sayı yaz göbələyi kimi artırdı.

İnsafən təhsil alan, idmanla məşğul olan gənclər də az deyildi. Lakin həmin gənclər üçün də lazımi infrastruktura malik nə bir məktəb, nə də idman obyekti vardı. Neft qoxan uçuq-sökük məktəb binaları, soyuq sinif otaqları, köhnə təhsil avadanlıqları, heç bir şəraiti olmayan laboratoriyalar, idman zalları müasir tədris anlayışı ilə uyğunluq təşkil etmirdi. Sovetdənqalma "Korvet" kompüterlərinin həsrətini çəkən gənclik təzə-təzə ayaq açan yeni texnologiyalardan, kompüterləşmədən də çox uzaqda idi. Məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrində də elə bu hal hökm sürürdü.

Həmin dövr gəncliyinin digər bir siması da laqeydlik idi: tarixinə, milli dəyərlərinə, adət-ənənələrinə, hətta ailəsinə olan laqeydlik. İş təkcə bununla da bitmirdi. Gənclərin bəlasına çevrilən uşaq əməyinin istismarı halları da baş alıb gedirdi. Maşrutlarda pulyığan, çayxanalarda, yeməkxanalarda qarsonluq edən azyaşlılarla da tez-tez qarşılaşmaq mümkün idi. Heç kimi bu uşaqların təhsili, sağlamlığı düşündürmürdü. Valideynlər də bu hadisələrə seyrçi mövqedən yanaşırdılar.

Bir sözlə, gələcəyimiz təhlükə altında idi. Zaman bizi çətin sınaqlar qarşısında qoymuşdu. Bütün bunlara "dur" deməyin vaxtı gəlib çatmışdı. Yaşayış şəraitimizin, düşüncəmizin, dünyagörüşümüzün kökündən dəyişilməyə çox böyük ehtiyacı vardı. Vətənin sabahına olan cavabdehlik hissinin sözdə, şüarda, vədlərdə yox, konkret əməldə və işdə reallığa çevrilməsinin vaxtı gəlib çatmışdı.

Böyük Çin filosofu Konfutsinin ölməz bir fikri var: "Ya bir yol tap, ya bir yol aç, ya da yoldan çəkil".

Naxçıvanda sağlam gəncliyin formalaşdırılmasına düzgün yol seçilməklə başlandı. Bu yol ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin, quruculuq yolunun real iş müstəvisinə çıxarılması yolu idi! Naxçıvan Muxtar Respublikası bu yolun uğurlu davamı ilə yeni inkişaf, quruculuq və sabitlik mərhələsinə qədəm qoydu və bununla da, gəncliyimizə-gələcəyimizə sahib çıxıldı.

İllər bir-birini yola saldıqca qədim Naxçıvan da tamamilə dəyişdi, şəhərimiz, kəndlərimiz inkişaf etdi, müasirliyə qovuşdu. Qayğılarımız, problemlərimiz günbəgün azaldı. Rahat və firavan yaşayışa qovuşduq. Doğma kəndimizdə, şəhərimizdə iş sahibinə çevrildik. Öz təknəmizin urvatına şükür etdik. Təhsilimiz, dünyagörüşümüz artdıqca həyata baxışımız da dəyişildi. Gənclərin əsas "məşğuliyyət" yerləri olan çayxanaları elm, təhsil ocaqları, zəngin fonda malik kitabxanalar, idman obyektləri, şahmat məktəbləri, mədəniyyət və istirahət parkları, beş-üç qəpiklik alver piştaxtalarını müasir xidmət sahələri, zavodlar, idarə və müəssisələr əvəz etdi. Dərk etməyə başladıq ki, Vətənə, xalqa xidmət etməyin yolu boş-boş xəyallara qapılmaqla deyil, real iş görməkdən – torpağı əkməkdən, yaxşı təhsil almaqdan, peşə-sənət öyrənməkdən və əsl vətəndaş kimi yetişməkdən keçir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir".*** Muxtar respublikada ulu öndərin tövsiyələrinə uyğun olaraq hər bir gəncə ölkənin gələcəyi kimi baxıldı. Sağlamdüşüncəli gənc nəslin yetişdirilməsi, gənclərin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda fəal iştirakının təmin edilməsi əsas strateji hədəfə çevrildi.

Naxçıvan gəncləri batıb qaldıqları bataqlıqdan çıxaraq elm, təhsil işığına qovuşdular. Təhsil quruculuğu geniş vüsət aldı. Yeni məktəb binaları, zəngin fonda malik olan kitabxanalar, mədəniyyət evləri və saymaqla bitməyən digər obyektlər tikilərək gənclərin istifadəsinə verildi. Ali təhsil müəssisələri üçün müasir tədris korpusları, universitet şəhərcikləri salındı. Bir faktı qeyd etmək yerinə düşər ki, ötən dövrdə muxtar respublikada 200-dən çox məktəb binası, 5 peşə məktəbi, 21 uşaq bağçası, 13 məktəbdənkənar tərbiyə müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Məktəblərdə ən son tədris avadanlıqlarından, sürətli internetdən istifadə olunur, distant təhsil tətbiq edilir. Hazırda muxtar respublikada hər 11 şagirdə bir kompüter düşür. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzi və Uşaq Bərpa Mərkəzi hərəkət qabiliyyəti məhdud uşaqların sağlamlığının qorunması və təhsilə cəlbində yeni mərhələnin – daha bir Naxçıvan nümunəsinin əsasını qoydu.

Muxtar respublikada kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması ucqar dağ kəndində də, paytaxt Naxçıvan şəhərində də gənclər üçün eyni şərait və imkanların yaranmasına, ən əsası isə məskunlaşmanın artmasına səbəb oldu. Bu gün kəndlərdə yaşayan gənclərimiz də müasir məktəblərdə təhsil alır, elektron lövhələrdən, kompüterlərdən, zəngin fonda malik olan kitabxanalardan istifadə edir, sürətli internetdən yararlanırlar. Onlar üçün də idman və bədən tərbiyəsi əlçatandır.

Ali Məclis Sədrinin Sərəncamı ilə istedadlı gənclərə dövlət qayğısı artırıldı, gənc istedadların "Qızıl kitabı" təsis olundu, Gənclər Fondu yaradıldı, Gənclər və "Gənclik" mərkəzləri istifadəyə verildi. Hazırda muxtar respublikada 8 gəncin adı gənc istedadların "Qızıl kitabı"na salınıb və onlara aylıq təqaüdlər ödənilir.

Gənclərin sosial problemlərinin həlli, xüsusilə mənzil şəraitinin yaxşılaşdırılması da öz həllini tapdı. Yeni iş yerləri açıldı, gənclər dövlət idarəçiliyində və digər sahələrdə önə çəkildi, əməklərinə yüksək qiymət verildi. Yeni yaşayış binaları tikildi, şəhərciklər salındı, gənclərə ipoteka yolu ilə mənzil sahibi olmaq imkanı yaradıldı. 2014-cü ildə Naxçıvan şəhərində 80 mənzilli 3 yaşayış binası, bu il isə Naxçıvan şəhərində 456 mənzilli 6 yaşayış binasından ibarət müasir "Gənclər şəhərciyi" yaşayış kompleksi istifadəyə verildi. Hazırda Babək, Kəngərli və Sədərək rayonlarında gənclər üçün çoxmərtəbəli yaşayış binalarının tikilməsi isə bu işin davamlı olduğunu və bütün yaşayış məntəqələrini əhatə etdiyini göstərir.

Naxçıvanda idman hərəkatı geniş vüsət aldı. Muxtar respublikada 2 Olimpiya-İdman Kompleksi, 2 Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, Atıcılıq Mərkəzi, rayon mərkəzlərində Uşaq-şahmat məktəbləri, Uşaq-gənclər idman məktəbləri, stadion və süniörtüklü mini-futbol meydançaları, ümumilikdə, 50 idman obyekti, məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və 900-ə yaxın sədətipli idman avadanlıqları gənclərin istifadəsinə verildi. Hazırda muxtar respublika gənclərinin 27 mindən çoxu aktiv şəkildə idmanla məşğul olur.

Bir haşiyə çıxaraq qeyd edim ki, Naxçıvanda sağlam gəncliyin formalaşdığını təsdiq edən mühüm amillərdən biri də muxtar respublikanın beynəlxalq idman yarışlarının keçirildiyi mərkəzə çevrilməsidir. Hər il keçirilən beynəlxalq festival və yarışlar bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Mayın 1-də start götürən ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalı, bir neçə gün sonra təşkil olunacaq cüdo və kikboksinq üzrə beynəlxalq turnirlər muxtar respublikanın böyük idman və gənclik potensialına malik olduğunu göstərir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Həyatın mənası ondan ibarətdir ki, dünyaya gələn, böyüyən, ərsəyə çatan hər bir uşaq, həyat fəaliyyətinə başlayan gənc cəmiyyətə, millətə, ölkəsinə, Vətəninə layiqli xidmət etsin, fayda versin".***

Bu gün Naxçıvan Muxtar Respublikasında sağlam təfəkkürlə böyüyən, təhsil alan, peşə öyrənən, əsl vətəndaş kimi yetişən, xalqına və ölkəsinə xidmət edən gənclik formalaşıb. Artıq Naxçıvan gənclərinin xoş sorağını duyuruq. Muxtar respublikada təhsilə cəlb olunmayan gənc yoxdur. Hər il ali məktəblərə qəbulda gənclərimiz yüksək bal toplayaraq nüfuzlu ali təhsil müəssisələrinin tələbələrinə çevrilirlər. Muxtar respublikada bütün yaş qrupları üçün bədən tərbiyəsi və idman həyat tərzinə çevrilib. Məhəllə "qoçular"ının yerini bayrağımızı beynəlxalq yarışlarda ucaldan reytinqli idmançılar, dünya və Avropa çempionları, çayxana həvəskarlarının yerini təhsilli və peşə sahibi olan gənclər – alimlər, sahibkarlar, məmurlar, mühəndislər, hərbçilər, yazıçılar, şairlər, sənətkarlar tutub. Bir sözlə, sağlam gənclik formalaşıb, gələcəyimizə etibarlı zəmin yaradılıb.

Bu gün Naxçıvan gəncinin siması boks üzrə Avropa çempionu Tayfur Əliyevdi, beynəlxalq reytinqli şahmatçılar Rauf Murtuzovdu, Sadiq Məmmədovdu, Pərviz Qasımovdu, gənc musiqiçilər Sərxan Əliyevdi, Uğur Ramazanlıdı, Səkinə Quliyevadı, Xaliq Həsənovdu, 14 yaşında 70-dən artıq romanı mütaliə edərək özü kitab yazan gənc müəllif Nicat Əsədlidi, Naxçıvan idman məktəbinin yetirməsi, üçqat dünya və ikiqat Avropa çempionu Hacı Əliyevdi, sosial şəbəkələrdə doğma Naxçıvanımızı tərənnüm və təbliğ edən, Naxçıvan şəhərini 2018-ci il üçün Azərbaycanın GƏNCLƏR PAYTAXTI seçən on minlərlə gəncdi. Sadalamaqla bitməyən bu uğurlar, heç şübhəsiz ki, etibarlı gələcəyimizin bu gündən xəbər verən xoş sədalarıdır.

***Gənclərin, hər şeydən əvvəl, xalqa güvənc vermələri vacibdir. Bu gün Naxçıvan gənci də ulu öndərimiz Heydər Əliyevin ideyalarına sadiq qalaraq öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçən əsl vətəndaş – GÜVƏNC YERİMİZDİR...***

**Ülvi HÜSEYNLİ**
*jurnalist*

## Şahmat Festivalının iştirakçıları 3 turnirdə iştirak ediblər



***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan-2018" Beynəlxalq Şahmat Festivalının iştirakçıları Naxçıvan Muxtar Respublika Stadionunda 95 naxçıvanlı məktəbli və azyaşlı şahmatçı üçün seans keçiblər.***

Görüşdə Eltac Səfərli, Qədir Hüseynov, Nərmin Xəlfəova, Zeynəb Məmmədyarova, Türkan Məmmədyarova, Aydan Höcətova, Xanım Balacayeva, Gülnar Məmmədli və Yunanıstan təmsilçisi Kotronias Vasillios iştirak ediblər.

Görüşlərin hamısında qrossmeysterlər qələbə qazanıblar.

Naxçıvan Şahmat Mərkəzində davam edən Beynəlxalq Şahmat Festivalının iştirakçıları arasında blitsturnir də keçirilib. Turnirdə 52 şahmatçı birincilik uğrunda mübarizə aparıb. Ümumi mükafat fondu iki min ABŞ dolları olan yarışda İran qrossmeysteri Ehsan Qaem Məqami qalib gəlib. Ukraynalı qrossmeyster Anton Korobov ikinci, qazaxıstanlı beynəlxalq usta Yevgeni Pak isə yarışı üçüncü pillədə başa vurublar.

Blits-turniri ilk yeddi pillədə başa vuran şahmatçılara pul mükafatı təqdim olunub.

Eyni zamanda zəka sahibləri arasında mini-futbol turniri də keçirilib. Belə ki, festivalda iştirak edən şahmatçılar "Hakimlər", "Dünya yığması" və "Naxçıvan" komandalarının tərkibində meydana çıxıblar. İlk oyunda qrossmeyster, FİDE ustaları və beynəlxalq ustalardan ibarət olan "Dünya yığması" komandası "Hakimlər" komandasını 8:4 hesabı ilə məğlub edib. İkinci görüşdə isə onlar bu qələbəni təkrarlaya bilməyib və "Naxçıvan" komandasına 6:5 hesabı ilə məğlub olublar. Son oyunda isə ədalət təmsilçiləri naxçıvanlı zəka sahibləri ilə "sülh" bağlayıblar – 4:4. Bununla, mini-futbol turnirinin qalibi 4 xalla "Naxçıvan" komandası olub.

**Ceyhun MƏMMƏDOV**

## Fənn olimpiadası keçirilib

*Naxçıvan Dövlət Texniki Kollecində Azərbaycan Respublikası Təhsil Nazirliyinin xətti ilə Naxçıvan şəhər ümumtəhsil müəssisələrini əhatə edən respublika fənn olimpiadasının final mərhələsi keçirilib.*

9-11-ci sinif şagirdlərinin cəlb olunduğu və üç mərhələni əhatə edən respublika fənn olimpiadasının fevral ayının 4-də keçirilmiş birinci rayon-şəhər mərhələsində muxtar respublikadan 700 şagird, aprel ayının 7-də keçirilmiş yarımfinal turunda isə 226 şagird iştirak edib.

41 şagirdin iştirak etdiyi üçüncü – final mərhələsi 8 fənn üzrə keçirilib. Şagirdlərə ayrı-ayrı fənlər üzrə açıqtipli suallar təqdim edilib. Sualların cavablandırılmasına 2-4 saat vaxt ayrılıb. Hər bir fənn üzrə sualların 70 faizinə düzgün cavab yazan şagird mərhələni keçmiş hesab olunur.

Onu da qeyd edək ki, olimpiadaların respublika mərhələsinin final turunun qalibləri respublika təşkilat komitəsi tərəfindən qızıl və gümüş medallar, diplom, tərifnamə, qiymətli hədiyyələr ilə təltif olunacaq, digər şagirdlərə isə sertifikat təqdim ediləcək. Həmçinin hər fənn üzrə olimpiadaların ən uğurlu şagirdi seçilərək "Birincilərin birincisi" nominasiyası ilə təltif olunacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Karate-do üzrə “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika açıq çempionatı başa çatıb



*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində muxtar respublikanın Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi karate-do üzrə keçirilən “Heydər Əliyev kuboku” uğrunda Naxçıvan Muxtar Respublikası açıq çempionatına yekun vurulub.*

Yarışda muxtar respublikanın şəhər və rayonlarının 8 komandası ilə yanaşı, Bakı şəhərinin 5 komandası da mübarizə aparıb və tatami üzərinə 300-ə yaxın idmançı çıxıb.

Çempionatın açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov yarış iştirakçılarını salamlayaraq ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. Qeyd edib ki, Azərbaycanda aparılan uğurlu idman siyasəti ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Fazil Ələkbərov bildirib ki, muxtar respublikada idmanın maddi-texniki bazasının gücləndirilməsi, yüksək səviyyəli idman yarışlarının keçirilməsi, məktəblərdə müasir standartlara cavab verən idman zallarının istifadəyə verilməsi yeniyetmə və gənclərin bu sahəyə olan marağını xeyli artırıb. Bunun nəticəsində muxtar respublika idmançıları hər il idmanın bir çox sahələrində böyük nailiyyətlər əldə edirlər. Təsadüfi deyil ki, muxtar respublikada 500-ə yaxın yeniyetmə və gənc idmanın karate növü ilə məşğul olur. Sevindirici haldır ki, bunların 115-i qızdır. Federasiyanın sədri yarış iştirakçılarına uğurlar arzulayıb və çempionatı açıq elan edib.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, bu gün Azərbaycan idmanın inkişaf səviyyəsinə görə dünyada öndə gedən ölkələrdən biridir. Qələbə sədaları Olimpiya oyunlarından, Avropa çempionatlarından gələn Azərbaycan bu sahədə inkişafa görə nəinki keçmiş SSRİ respublikalarını, hətta əksər Avropa dövlətlərini də geridə qoyur. Ölkə Prezidentinin böyük diqqət və qayğısı idmançılarımızı daha da ruhlandırır, onları yeni-yeni qələbələrə aparır.

“Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada da idmanın inkişafı istiqamətində mühüm işlər görülür”, – deyən nazir qeyd edib ki, bunun nəticəsində 2017-ci ildə muxtar respublika idmançıları Azərbaycan birinciliklərində 129, beynəlxalq turnirlərdə 89, Asiya çempionatlarında 2, Avrasiya çempionatlarında 13, Avropa çempionatlarında 1, dünya çempionatlarında 5, IV İslam Həmrəyliyi Oyunlarında 1 medal qazanıblar. Nazir çıxışının sonunda idmançılara yarışlarda qələbə əzmi arzulayıb.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Başirov və Azərbaycan Milli Karate Federasiyasının baş katibi, “İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov çıxış edərək ulu öndər Heydər Əliyevin idman siyasətindən, Azərbaycanda bu sahəyə göstərilən yüksək diqqət və qayğıdan bəhs edib, iştirakçılara uğurlar diləyiblər.

Sonra Azərbaycan Milli Karate Federasiyası tərəfindən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərova və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarova xatirə hədiyyələri təqdim olunub.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı konsert proqramı ilə çıxış edib.

Karateçilərin nümunəvi çıxışlarından sonra çempionatın final görüşlərinə start verilib.

Yekun nəticələrə görə Vüsal Seyidov, İmran Mövsümov, Hüseyn Məmmədli, Əsəd İmanov, Aslan İsmayılov, Sərcan Məmmədov və Babək Qələmzadə öz çəki dərəcələrində bütün rəqiblərini üstələyərək turnirin qalibi adını qazanıblar. Qızlar arasında isə Səmra Məmmədli qalib olub.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

Komanda hesabında isə “Naxçıvan” komandası qalib adını qazanıb. “Arpaçay” komandası ikinci, “Araz” komandası üçüncü olub. Qalib komandalar turnirin kubokları ilə təltif olunublar.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasına isə yarışın yaxşı təşkil olunmasına görə “Heydər Əliyev kuboku” təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

# Mənim qəhrəmanım: Hacı Əliyev

## *Avropada “Günün döyüşü”: Naxçıvan güləşçisi kişi kimi vuruşdu*

Fikrimcə, Naxçıvan güləşçisi Hacı Əliyev yeni dövr milli qəhrəmanlarımızdan biridir. Çünki indi dünyanın həsəd apardığı, hər gənc idmançının özünə kumir seçdiyi Hacı düz beş kərə – 3 dəfə dünya, 2 dəfə isə Avropa çempionatlarında bayrağımızı başı üzərinə qaldırıb.



Üzeyir Hacıbəyli və Əhməd Cavad ruhlu himnimizi səsləndirib. Ona görə Hacıya milli qəhrəman deyirəm ki, o həm səfirdi, həm diplomatdı, həm səngərdə keşik çəkən döyüşçü əsgərdi, həm də Azərbaycanın siması olan gənc və perspektivli idman elçisidi.

Ölkələr var ki, hələ də dünya və Avropa çempionatlarında 1 bürünc medal belə, qazana bilməyiblər. Ancaq Hacı təkbaşına 5 qızıl medal qazanıb!

1991-ci ildə Naxçıvan şəhərində sadə, zəhmətkeş bir ailədə dünyaya göz açan bu “qızıl oğlan” hələ uşaq yaşlarından valideynləri tərəfindən cidd-cəhdlə güləşə cəlb olunub. İlk müəllimi atası Azər Əliyev, çəmənlikdə, göy otların üstündə ilk rəqibi isə qardaşı – 2013-cü ildə Avropa çempionatının bürünc mükafatçısı olmuş Yaşar Əliyev olub. Yüksək idmançı intizamı, özünə qarşı tələbkarlıq, Naxçıvanda gənc idmançıların yetişməsi üçün mövcud olan lazımi şərait və dəstək Hacını qısa vaxtda milli komandamızın tərkibinə qatıb. Hələ bir neçə il əvvəl 3 dəfə ard-arda dünya çempionu titulunu qazanan qəhrəmanımız Azərbaycan güləş tarixində bir ilkə imza atıb.

Hacı bu gənc yaşında həm “Tərəqqi” medalı, həm də “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilib. O həm də XXXI Yay Olimpiya Oyunlarının və I Avropa Oyunlarının bürünc mükafatçısı, İslam Həmrəyliyi Oyunlarının qalibidir...

Budur, ötən gün Hacı yenə də döşək üzərinə çıxıb.

Rusiyada keçirilən Avropa çempionatında sərbəst güləşçimiz 65 kiloqram çəkidə əvvəl avstriyalı, sonra isə türkiyəli və sloveniyalı rəqiblərini məğlub edərək final yolunu açır. Finaldakı rəqib ev sahibi – rusiyalı idmançı İlyas Bekbulatovdur. Güclü rus güləşçi 8 dəqiqəlik görüşün ortalarında Hacını 5-0 üstələsə də, pəhləvanımız inadla döyüşür və son anda 8-7 hesabı ilə rusiyalı rəqibinə və zalı dolduran çoxsaylı yerli azarkeşlərə “şok” yaşadır.

Çünki o, Haçadağın vüqarını biləyində, Arazın nəğməsini ürəyində gəzdirən Hacı Əliyevdir...

Nəfəslərimizi tutub izlədiyimiz bu qarşılaşmanı Dünya Güləş Federasiyası (FİLE) “Günün döyüşü” elan edir.

Bəli, Naxçıvan idmançısı Avropada günün adamı, günün döyüşçüsü, günün qəhrəmanı, üçrəngli bayrağın bayraqdarı, dünyada yaşayan milyonlarla azərbaycanlının qürurudur!!!

Təbriklər, Hacı!

Qoy babalarımızın ruhu və nəfəsi ilə dalğalanan, şəhidlərimizin qanı ilə qidalanan ay-ulduzlu mələyimiz sənin kimi nümunəvi gənclərin başı üzərindən enməsin!

Naxçıvan, Azərbaycan səninlə qürur duyur, üçqat dünya, ikiqat Avropa çempionluğun mübarək!!!

Səni bağrımıza basırıq, sən MİLLİ UCALIĞIMIZ olan bayrağımızı həmişə bağrına basıb ucalara qaldırdığın kimi...

**Sahil TAHİRLİ**
***jurnalist***

# Şuşanın işğalından 26 il ötür

## *Biz Azərbaycanın bu dilbər guşəsinə yenidən qayıdacağıq*

26 il bundan əvvəl – 1992-ci il mayın 8-də Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilən Şuşada həmin dövrdə 25 min nəfərədək azərbaycanlı yaşayırdı. Mayın 8-nə keçən gecə təcavüzkar erməni silahlı birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə Şuşa şəhərini işğal etmək planını həyata keçirməyə başlayıb. Səhər saat 6-dək şəhər intensiv artilleriya atəşinə məruz qalıb. Bundan sonra düşmənin minə yaxın əsgəri üç tərəfdən Şuşaya hücum edib. Nəticədə, dağlar gözəli, Azərbaycanın musiqi beşiyi olan qədim şəhərimiz xain düşmənin əlinə keçib.

Gözəlliyi ilə gözoxşayan əsrarəngiz Şuşa şəhəri Pənahəli xan Cavanşirin adı ilə bağlıdır. Belə ki, 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumlarından qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyur. Pənahəli xan hasarın içərisində yeni binalar və özü üçün saray tikdirir. Yerli əhali bu şəhəri Pənahəli xanın şərəfinə “Pənahabad” adlandırır. Şişuclu dağlar əhatəsində yerləşən Pənahabad əvvəllər “Şişə”, sonralar isə “Şuşa” adlandırılıb.

Pənahəli xanın ölümündən sonra Qarabağın hakimi olan İbrahimxəlil xanın dövründə Qarabağ xanlığı daha da güclənir və inkişaf edir. Pənahəli xan və İbrahimxəlil xan Qarabağ xanlığının paytaxtı Şuşa şəhərini qədim və orta əsrlərin şəhərsalma nümunələri əsasında yüksək səviyyədə bina ediblər.

Şəhərin cənub tərəfi hündür və horizontal düzənlikdir. Bura “Cıdır düzü” adlanır. Şuşanın yerləşdiyi sahə isə 350 hektardır. Şəhərə ancaq bir nəqliyyat yolu var idi: Ağdam-Əskəran-Xocalı-Xanbağı-Ağa körpüsü-Şuşa yolu.

Şuşa XX əsrdə 3 dəfə erməni təcavüzünün qurbanı olub. 1905-1907-ci illərdə Şuşa şəhəri ermənilər tərəfindən hücuma məruz qalıb və yandırılıb. 1920-ci ildə şəhərin xeyli hissəsi daşnaklar tərəfindən dağıdılıb. Məlum işğal faktı isə 1992-ci ilin mayında oldu.

Hələ sovet hakimiyyəti illərində ermənilər tərəfindən Şuşadakı tarixi abidələrimiz dağıdılmış, laqeydlik Şuşanın iqtisadi baxımdan tənəzzülü ilə nəticələnmişdi. Şuşa şəhərinin yenidən dirçəldilməsi yalnız



1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsindən sonra mümkün olmuşdu. Məhz ulu öndərimizin təşəbbüsü ilə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər görülmüş, 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti “Şuşa şəhərinin tarixi hissəsini tarixmemarlıq qoruğu elan etmək haqqında” qərar qəbul etmişdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülmüş, ölkədə milli musiqi alətləri istehsal edən yeganə Şərq Milli Musiqi Alətləri Fabriki istifadəyə verilmiş, Azərbaycan mədəniyyətinin və incəsənətinin korifeyləri olan Üzeyir Hacıbəylinin, Bülbülün, Xurşidbanu Natəvanın, Mir Möhsün Nəvvabın ev-muzeyləri yaradılmış, 1982-ci ilin yanvarında Molla Pənah Vaqifin məqbərəsi açılmışdı.

Ulu öndərimizin hakimiyyətdə olduğu dövrdə Azərbaycanın inkişafının qarşısını almağa, torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi. Onun XX əsrin 80-ci illərinin sonlarında hakimiyyətdən uzaqlaşdırılmasından sonra xalqımızın ağrı-acılarla dolu dövrü başlandı, Dağlıq Qarabağın işğalı planı hissə-hissə həyata keçirildi və Şuşa xəyanətin qurbanı oldu.

Ümummilli lider Heydər Əliyev Şuşanın Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: ***“Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”.***

Bu gün işğalçı Ermənistanın qeyri-konstruktiv mövqedə olmasına baxmayaraq, qüdrətli Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc yolla nizama salmaq üçün vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir.

Bu gün ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən, Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasını xüsusi diqqətdə saxlayan Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını üstün tutduğunu nümayiş etdirir. Dövlət başçısı ölkəmizin qəti mövqeyini, dəyişməz siyasətini belə ifadə edib: ***“Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq”.***

*2016-cı ilin aprel döyüşləri bir daha sübut etdi ki, bəli, o gün uzaqda deyil. Biz Azərbaycan torpaqları üzərində ikinci bir erməni dövlətinin yaranmasına imkan verməyəcək, yenidən Şuşaya qayıdacağıq!*

**✍ Rauf KƏNGƏRLİ**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 340